Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi



# AYLIQ BÜLLETEN

Aprel 2020

## Əlilliyi olan və ya öyrənmədə çətinliyi olan uşaqların ümumtəhsil siniflərinə inklüziyasının idarə olunması

Sinif otaqlarında inklüziyanın idarə olunmasının ən müasir yanaşmalarından biri *"Uşaq və ailə dəstək planı"*dır. Uşaq və ailə dəstək planı inklüziv məktəblərdə əsas maraqlı tərəflərə (valideynlər, müəllimlər, xüsusi pedaqoqlar və s.) uşaqlar haqqında məlumat toplamaq, bu məlumatlar əsasında təlim hədəflərini müəyyən etmək və bu təlim hədəflərinə çatmaq üçün lazım gələn dəstək və vasitələri planlaşdırmağa kömək etmək üçün bir vasitədir.

Plan əlilliyin sosial və ya hüquqi əsaslı modeli əsasında hazırlanır. Bu isə o deməkdir ki, əsas diqqət müyəssərlik və iştirak çətinliklərinə, habelə uşaqların üzləşdiyi bu çətinlikləri aradan qaldırmaq üçün məktəb icmasının nələr edə biləcəyinə istiqamətlənir. Belə ki, burada diqqət mövcud təhsil sisteminə uyğunlaşdırmaq üçün uşağı necə dəyişmək lazım gəldiyinə yönəldilmir.

### Uşaq və ailə dəstək planının hazırlanmasına kimlər cəlb edilməlidir?

Uşaq və ailə dəstək planının hazırlanması prosesi bütün maraqlı tərəflərin qarşılıqlı səyi çərçivəsində həyata keçirilməlidir. Proses fasilitator – əvvəlcədən təyin olunmuş sosial işçi, təhsil məsləhətçisi, "Psixoloji, Tibbi və Pedaqoji Komitə"lərin üzvü və ya xüsusi təhsil işçisi tərəfindən başlanıla bilər. *Planlama prosesinin mərkəzində uşaq və onun ailəsi durur.* Fasilitator yalnız onların səsini eşitməklə qənaətlənməməli, həmçinin uşaq və onun ailəsinin planlama prosesinin hər addımında iştirakını təmin etməlidir. Bura uşaq və onun valideynlərinin bütün iclas və görüşlərə dəvət edilməsi, uşaq və valideynlərinə anlaşıqlı şəkildə olmaqla məlumatların təmin edilməsi, onların dinlənməsi, eləcə də onların gözləntiləri, prioritetləri və narahatlıqlarına hörmətlə yanaşılması daxildir. Ailə daxilində qardaş və bacıları da dinləmək çox əhəmiyyətlidir. Çünki uşaq, adətən, bacı və qardaşları ilə çox vaxt keçirir. Onlar uşaq haqqında xüsusi məlumatları təmin edə bilər və onların dəstəklənməsi, xüsusilə sosial biliklərin əldə edilməsində çox mühüm rol oynayırlar. Məktəbdəki iştirakçılara sinif rəhbəri, fənn müəllimləri, direktor, məktəb psixoloqu və uşağın dostları daxildir. Uşaq bir təhsil səviyyəsindən digərinə keçid etdiyi təqdirdə hər iki təhsil müəssisəsinin müəlliminin bu prosesə cəlb edilməsi işlərin gedişatına yardımçı ola bilər. Uşağın dostlarını da dinləmək vacibdir. Onlar uşağın arzuları, narahatlıqları və sosial vəziyyətinə dair xüsusi məlumatları təmin edə bilər. Bu komandaya zorbalıq (bullinq) kimi halları aşkar etməyə kömək edir.

Uşaq və ailə dəstək planının hazırlanması prosesinə xüsusi pedaqoqlar, terapevtlər və sosial işçilər də cəlb edilməlidir. Xüsusi pedaqoqlar xüsusi məktəb müəllimləri, jest dili tərcüməçisi və Brayl mütəxəssisi, həmçinin, terapevtlər loqoped, erqoterapevt və ya fizioterapevt ola bilər. Xüsusi pedaqoqlar və terapevtlər öyrənməni dəstəkləmək üçün ehtiyacları qiymətləndirməyə, müvafiq hədəfləri müəyyən etməyə və bu hədəflərə nail olmaq üçün strategiyaların təklif edilməsinə yardım edə bilər. Sosial işçilər isə mövcud resursların bölüşdürülməsi sxeminin qurulması və təmin edilməsi, müxtəlif maraqlı tərəflərin əlaqələndirilməsi, ailə üzvlərindən məlumatların toplanması və ümumi mənzərənin yaradılmasına dəstək ola bilər.

# Uşaq və ailə dəstək planının hazırlanması

Uşaq və ailə dəstək planını hazırlamaq üçün fasilitator ilk addım olaraq hansı məlumatların kim tərəfindən toplanmasını müzakirə etmək üçün bütün maraqlı tərəfləri bir yerə yığmalıdır. Məlumatlar toplandıqdan sonra maraqlı tərəflər yenidən görüşərək məlumatları birlikdə təhlil edə, eyni zamanda prioritetləri, hədəfləri, güclü tərəfləri, dəstək ehtiyacları, strategiyalar, resurslar və baryerləri müzakirə etməlidir. Uşaq və ailə dəstək planının tamamlanması fasilitator tərəfindən koordinasiya olunmalıdır. Bu zaman maraqlı tərəflərdən ibarət komanda planın icrasına nəzarət edilməsi və lazım gəldikdə düzəlişlərin edilməsi üçün müntəzəm əsasda görüşlər keçirməlidir.







Uşaq və ailə dəstək planının şablonu uşaq və onun ailəsi üçün prioritetlər, hədəflər və gözləntilər, eləcə də bu hədəflərə nail olmaq üçün onların necə dəstəklənəcəyinə dair məlumatlarla başlanır. Əsas diqqət uşağın nə edə biləcəyi və nə əldə etmək istədiyi, habelə bu hədəflərə nail olmaq üçün hansı dəstəyə ehtiyac duya biləcəyi üzərində cəmlənir. Fokus zəif cəhətlər və ya çatışmazlıqlar, o cümlədən fərdi çətinliklərin necə aradan qaldırılması deyil.




# Uşaq və ailə dəstək planı

Bu vəsait "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıq- larının artırılması proqramları"na əlavə olaraq UNİCEF və RİİB üçün tərtib edilmişdir. "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması proqramları" Azərbaycanda müəllimlərin inklüziv siniflərdə tədris etmək imkanları və səriştələrinin artırılması məqsədilə hazırlanmışdır. Sözügedən proqramların əsas hədəfi həm ümumi və xüsusi təhsil sistemində çalışan müəllimlər, həm də bu sahələr üzrə təhsil alan tələbələrdir.

Bu vəsaiti aşağıdakı keçiddən əldə etmək olar. (https://inkluzivtehsil.az/book/13.html).

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir





# Müəllimlər üçün tövsiyə

*Bülletenimizin aprel buraxılışında müəllimlərlə siniflərdə nizamsızlığı ilə diqqət çəkən şagirdlərə bələdçilik etmək üçün pozitiv nizam-intizam qaydalarını bölüşürük.*

Hər sağlam uşaq diqqət tələb edir və bir çox nizamsız davranışın arxasında bu diqqət ehtiyacı dayanır. Şagirdlərin sağlam özünəinam formalaşdırması üçün lazımi diqqəti təmin etmək öyrətməyin əsas hədəflərindəndir. Bəzi şagirdlər əlavə diqqət üçün nizamsız davranış göstərirlər. Onlar diqqət mərkəzində olmağa can atır və həm sizi, həm də sinif yoldaşlarını davamlı şəkildə yayındırırlar. Onların öz mövcudluqlarını və əhəmiyyətlərini təsdiqləmək ehtiyacı var. Nizamsızlığı ilə diqqət çəkən şagirdlərə münasibətdə tətbiq edə biləcəyiniz pozitiv nizam-intizam qaydalarının siyahısı ilə aşağıda tanış ola bilərsiniz.

- Onların yaxşı hərəkətlərini dəyərləndirin. Diqqət axtarmadıqda və ya nizamsız davranmadıqda onları tərifləyin.
- Bu cür davranışı mümkün qədər göz ardı edin, xoş vaxtlarda uşağa müsbət diqqət ayırın.
- Diqqət cəlb etmək üçün onlara necə müraciət etməli olduqlarını öyrədin (məsələn, sualları olan zaman qaldırmaqları üçün onlara üzərində “zəhmət olmasa, mənə baxın” yazılan kartlar düzəldin).
- Onlara göz ağardın, ancaq danışmayın.
- Yaxınlıqda dayanın (uşaqlara yaxın dayanırsınızsa, diqqət cəlb etmək üçün artıq hərəkətlərə ehtiyac qalmayacaq).
- Hədəf-dayan-et. Bu qaydanı tətbiq edərkən hədəf yerinə şagirdin adını qoyun. Dayanmağını arzuladığınız hərəkəti müəyyən edin və şagirdin nəzərinə ondan hansı hərəkəti etməyini gözlədiyinizi çatdırın. Daha sonra edəcəyi hərəkəti seçməyə və nəticələri ilə razılaşmağa ona imkan yaradın.
- Gözlənilməz hərəkətlər edin, məsələn, işıqları söndürün, musiqili səslər çıxarın, səs tonunuzu aşağı salın və ya dəyişin, divarla danışın.
- Birbaşa sual vermək, yaxşılıq istəmək, seçimlər vermək və ya aktivliyi dəyişmək yolu ilə uşağın diqqətini yayındırın.

Mənbə: UNESCO, Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti (Xüsusi kitabça 1) https://www.inkluzivtehsil.az/book/16.html

# Ailə və icma: Tayland strategiyası

Bütün uşaqların təlim prosesinə daxil edilməsi və tam iş-tirakının təmin edilməsi üçün icmanın bütün üzvlərinin birlikdə çalışması vacibdir. Məhz Uşaq və ailə dəstək planı bu əməkdaşlığı və ortaq səyləri təşviq edən bir vasitədir. Ailə və icmanın sıx əməkdaşlığı ilə isə daha yaxşı nəticələr əldə etmək olar. Bununla bağlı Tayland təcrübəsini sizinlə bölüşürük. Belə ki, Taylandda öyrənmə çətinliyi olan, tez-tez dərsdən yayınan, öyrənməyə həvəsi olmayan və ailə gəlirləri aşağı olduğundan əməyə cəlb olunan uşaqların üzə çıxarılmasında məktəblər onların nailiyyətləri və ailələri haqqında məlumatlardan istifadə edirlər. Belə uşaqlara ipək və pambıq toxuculuğu, tikiş, ağac emalı, kənd təsərrüfatı istehsalı, yazı yazma, kompüter təlimi və başqa bacarıqların öyrədilməsinə üstünlük verilir. Bu təlimlər uşaqlar məktəbdə olarkən ailə gəlirlərinin artmasına və onların bütün həyatları boyu istifadə edə biləcəkləri bacarıqlara yiyələnməsinə imkan yaradır. Onlar uşaqların özünə olan inam və hörmətini, nailiyyət duyğusunu da artırır. Bu uşaqlardan bəziləri öz işlərinə görə milli və regional mükafatlara da layiq görülmüşdür. Bəzi məktəblərdə bu uşaqların valideynləri “müəllimlik” edərək, şagirdlərə ipək ipliklərin boyanması və ənənəvi naxışların toxunması kimi qədimi bacarıqları öyrədir. Bütün bu səylər yaşayış resurslarını gücləndirmək və vacib mədəni dəyərləri saxlamağın əhəmiyyətini vurğulamaqla, ailələrin və icma üzvlərinin gözündə məktəbin dəyərini yüksəldir. Bu isə öz növbəsində şagirdlərin məktəbdəki işi və davranışı, həmçinin təhsilin gələcəkdə ailəyə gətirə biləcəyi faydalar barədə valideyn və uşaq arasındakı ünsiyyəti artırır.

Mənbə: UNESCO, Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti (Xüsusi kitabça 1) https://www.inkluzivtehsil.az/book/16.html



Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

# İnklüziv təhsildə valideyn təcrübələri:

İnklüziv təhsilinin təşəkkülü prosesində valideynlərin rolu böyük olub. Aidiyyəti dövlət qurumları və təhsil müəssisələri inklüziv təhsili əsasən inzibati və nəzəri yöndən inkişaf etdirmək iqtidarındadır. Lakin təhsil işçiləri ilə yanaşı valideynlər inklüziv təhsilin təcrübədə daha effektiv reallaşmasına təkan verən qüvvədir. Təhsil siyasətinin təkmilləşdirilməsi, məktəblərin inkişafı, icmanın məktəblərə dəstək göstərməyə təşviq edilməsi kimi məsələlərdə valideynlərin birbaşa iştirakı bir çox məsələləri həll edə bilər. Bütün bunları nəzərə alaraq, aylıq bülletenimizdə artıq müxtəlif bölgələrdən olan valideyn təcrübələrini sizinlə bölüşəcəyik.



## Şəfa Əliyeva (Cəlilabad rayonu)

*Mənim üç övladımdan ikisi tələbədir. Kiçik övladım Əlinin 8 yaşı var. Onun əqli əlilliyi və nitq əlilliyi var. Onun əlilliyinin olmasını 3 yaşında hiss etməyə başladım. Dərhal həkimə müraciət etdim. Həkim müalicə ilə yanaşı övladımın cəmiyyətə adaptasiya etməyi də tövsiyə etdi. Buna görə övladımı uşaq baxçasına qoydum və o, 6 yaşınadək bağçaya getdi. Övladımı bağçaya qoymaqda məqsədim o idi ki, o, öz həmyaşıdları arasında olsun, sosiallaşsın və inkişaf etsin. Bunun müsbət naticəsini gördüm. Hazırda oğlum məktəblidir. 2-ci sinifdə oxumalı olduğu halda, əlilliyi ilə əlaqədar olaraq məktəbə bir il gec getdi, ancaq onu təhsildən kənarda qoymadım.*

*Mən ibtidai sinif müəllimiyəm və öz təcrübəmdə əlilliyi olan uşaqlarla rastlaşmışam, onlara təlim keçmişəm. Təhsil aldıqda əlilliyi olan uşaqların inkişaf etdiyinə özüm şahid olmuşam. Buna görə qərara gəldim ki, bir il övladımı qeyri-rəsmi də olsa məktəbə aparım ki, mühitə uyğunlaşsın. Qeyd edim ki, həkimlər Əliyə həm də hiperaktivlik diaqonozu da qoymuşdular. O, sinifdə öz hiperaktivliyi ilə təlim prosesinə mane olur, sinif yoldaşları ilə ünsiyyətə girməkdə çətinlik çəkir, onlarla anlaşa bilmirdi. Həmyaşıdları da onunla normal ünsiyyətə girə bilmədiklərindən onunla birgə vaxt keçirmək istəmirdilər. Bütün bunlara baxmayaraq mən qətiyyən məyus olmurdum və övladımın inkişafı üçün mübarizə aparırdım Müəyyən müddətdən sonra mən onda irəliləyiş müşahidə etməyə başladım. Əli artıq 1-ci sinifdə oxuyur. Mən bir valideyn kimi çox sevinirəm ki, zəhmətim nəticə verdi və mənim də övladım sentyabrın 15-də digər uşaqlarla bir sırada durdu və məktəbə daxil oldu. İndi Əlinin ətraf aləm haqqında anlayışı var, məktəbin nə olduğunu başa düşür. Məktəbə getməzdən əvvəl biz Əlini nəzarətsiz qoya bilmirdik. Ancaq indi o, məktəbdə öz sinif yoldaşları ilə birgə sərbəst hərəkət edir. Hətta məktəbdə rast gəldiyi maraqlı hadisələr haqqında öz fikrini bildirir. Öz övladımın timsalında aydın şəkildə gördüm ki, əlilliyi olan uşaqları cəmiyyətdən kənarlaşdırmaq qətiyyən düzgün deyil. Onların bir şəxsiyyət kimi inkişafı ancaq cəmiyyətdə mümkündür. Onlar cəmiyyətdə nə qədər çox olsalar, bir o qədər inkişaf edərlər. Mən bir valideyn kimi çox şadam ki, övladımı cəmiyyətdən kənarlaşdırmadım, onun inkişafı və cəmiyyətin bir üzvü olması üçün çalışdım və çox müsbət nəticə əldə etdim. Fikrimcə, hər bir valideyn bu cür etməlidir. Əlillik qüsur deyil. Bu, uşaqların özünəməxsus fərqliliyidir. Biz buna görə utanmamalı, övladımızın gələcəyi üçün mübarizə aparmalı və bununla qürur duymalıyıq.*